**Səfiyyə Gülmalıyeva**
**Magistrant**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universiteti**
**E-mail:** safiya91-91@mail.ru

# Dünya muzeylərində Azərbaycana məxsus numizmatika eksponatlarının saxtalaşdırılması

**Xülasə:** Məqalədə Azərbaycana məxsus maddi mədəniyyət nümunələrinin müxtəlif işğallar zamanı oğurlanaraq ölkə ərazisindən çıxarılması, saxtalaşdırılaraq başqa ölkələrin adı ilə təbliğ edilməsindən və bunun acı nəticələrindən bəhs edilir.

**Açar sözlər:** Numizmatika, sikkə, eksponat, saxtalaşdırma, muzey

Bütün tarixi dönəm ərzində fərqli və qarışıq siyasi sistemlərə, müxtəlif siyasi qurumlara şahidlik etmiş Azərbaycanın hər dönəmə məxsus mədəni tarixi abidələri mövcuddur. Bu mədəni tarixi nümunələr hər dövrə uyğun olaraq, hər siyasi quruluşa uyğunlaşmış və zənginləşmişdir. Müxtəlif sivilizasiyalara rəhbərlik etmiş və ya əksinə, təsiri altında olmuşdur. Yurdumuz uzun tarixi dönəm ərzində çox saylı yadelli işğallarına məruz qalmışdır. Bu yadelli işğallarının nəticəsində ölkə ərazisindən zəngin maddi mədəniyət nümunələri, qiymətli əntiq əşyalar, qızıl, gümüş, pul nominalları, qənimət olaraq daşınmışdır. Hal-hazırda dünyanın bir sıra muzeylərində bu əşyalar saxlanılır. Qənimət kimi aparılan əşyaların ən pis nəticəsi onların ya başqa bir ölkənin nümunəsi kimi, ya da özünküləşdirilərək nümayiş etdirilməsidir. Təssüflə qeyd etməliyik ki, 70 il Sovet əsarətində olduğumuz dövrdə "milliləşdirmə ideologiyası" adı altında Azərbaycanın zəngin və çox qiymətli mədəniyyət nümunələri Postsovet məkanlarına aparılıb. Həmçinin, Sovetlər dövründə Azərbaycana başqa millətlərə məxsus tarixçi və tədqiqatçıların dəvət olunması tariximizin saxtalaşdırılmasına şərait yaratmışdır. Təsadüfi deyil ki, həmin illər Naxçıvan Muxtar Respublikasına tədqiqat məqsədi üçün gələn erməni tarixçisi Ter-Avetisyan və Lalayan məkirli bir niyyətlə qədim tarixmizi öz xeyrinə saxtalaştırmağa cəhd edir. Ter-Avetisyan və Lalayan ölkəmizdə aşkar etdikləri sikkəşünaslıq materiallarını qarət edərək Ermənistan muzeylərinə daşımışdır (1. səh 53).

Onuda qeyd etmək lazımdır ki, ermənilərin yurdumuza xas olan sikkə nümunələrini saxtalaşdırmağına baxmayaraq, dünyanın görkəmli numizmat

alimlərinin tərtib etdiyi sikkəşünaslıq kataloqlarına nəzər yetirərkən ölkəmizin ərazisində zərb edilmiş sikkələr haqqında məlumat əldə edə bilirik. Bu numizmat alimlərə nümunə olaraq K.Fren, B.Dora, Berezin, Bartolomey, A.K.Markov, Əhməd Ziya, Y.Paxomov, D.Y.Kapanadze və digərlərni göstərmək olar. Numizmat alimlər qeyd edirlər ki, qədimdən müxtəlif tərkibli, ölçülü, formalı qızıl, gümüş, mis pul nümunələri zərb edilmiş və ticarət zamanı mübadilə vasitəsi kimi dünyanın çoxsaylı ölkələrinə yayılmışdır.

SSRİ tərkibində olan muzeylərin fondunda mühafizə edilən Naxçıvan Muxtar Respublikası ərazisində kəsilmiş Sasanilərə məxsus olan sikkələrin tarixi əhəmiyyəti vardır. Belə ki, zərb edilən sikkələr üzərində “NAXÇ” ifadəsi bizə Naxçıvan şəhərləri haqqında dolğun məlumat verir. Zərb edilən sikkələrdən aydın olur ki, Naxçıvan ərazisi ərəb əsarəti altında olana qədər bu ərazidə mövcud olan sikkə zərbxanaları dözümlü, səmərəli və kefiyyəti yüksək olan sikkə zərbi ilə məşğul idilər (3. səh 158). Naxçıvan ərazisində zərbxanaların fəaliyyəti Sasani dövlətinin dağılmasından sonra da davam etmişdir. Belə ki, uzun zaman kəsiyində Naxçıvanda kəsilən pul nominalları dünya ölkələrinə daşınıb və hal-hazırda ABŞ, İngiltərə, Türkiyə, Almaniya, Rusiya, Gürcüstan və digər ölkələrin muzeylərinin hegemon kolleksiyalarında ən dəyərli, antik, tarixi eksponat olaraq saxlanılmaqdadır. Bu dəyərli sikkə nümunələri hər nə qədər tarixi saxtalaşdırılaraq Fars-İran dövlətlərinə şamil edilsə də, aparılan tədqiqat işləri sikkə nümunələrinin Azərbaycana məxsus olmasını sübut etmiş olur. Qeyd etmək lazımdır ki, Rusiyada fəaliyyət göstərən muzeylərin əksəriyyətində Azərbaycana məxsus eksponatlar saxlanılır və bulara arasında sikkəşünaslıq materialları heç də azlıq təşkil etmir. O cümlədən, Moskva Dövlət Tarix Muzeyinin sikkəşünaslıq fondunda Naxçıvanda təxminən hicri təqvim ilə 701-ci, miladi təqviminə görə isə 1301-1302-ci illərdə Qazan xanın əmri ilə zərb edilmiş sikkə nümunəsi mühafizə edilir. Sikkəyə nəzər salsaq onun hər iki tərəfinin eyni, zərb edilmə tarixinin isə arxa üzündə olduğunun fərqinə vararıq. Sikkənin bir üzünün orta hissəsində ərəb xətti ilə beşguşəli ulduz simvolu həkk edilib. Sikkənin kənar tərəflərində isə dini görüşlər qeyd edilib.

Eyni forma, ölçü və görünüşlü digər bir sikkə də Sant-Peterburq Dövlət Ermitaj muzeyində saxlanılır. Sant-Peterburq Dövlət Emirtaj muzeyində saxlanılan bu sikkə nümunəsinin zərbi hicri təqvimi ilə 642-ci il, miladi təqvim ilə 1244-1245-ci ilə təsadüf edir. Sikkə nümunələrinin hər ikisini müqayisə etsək, birinci sikkə nümunəsinin kəsimi və formasının çox primitiv olduğunu görərik. Sikkənin üz hissəsində çevrənin daxilində üz-üzə at çapan iki atlı, atlılardan yalnız birinin kənarında hədəfinə doğru gedən köpək təsviri verilib. Sikkənin digər üzündə çevrədə üç xətt ərəb əlifbası ilə islam nişanı qeyd edilib.

Həmçinin, sikkənin aşağısında da ərəbcə yazılar həkk edilmişdir. İkinci sikkənin birincidən tək fərqi onda, zərb tarixinin qeyd edilməsidir.

Azərbaycan Milli Tarix muzeyinin Numizmatika fondunda Atabəylər dövləti tərəfindən hicri təqvim ilə 734-cü il, miladi təqvim ilə 1333-1334-cü illərdə zərb edilmiş sikkə mühafizə edilir. Mühafizə edilən sikkənin üst hissəsində iki çevrə mövcuddur. Çevrənin daxli qismində beş misra ərəb xətti ilə yazılar həkk olunub. Üçüncü misrada Əbu Səidin ismi, "Sultan ədalətlidir" sözləri ərəb dilində qeyd edilib. Azərbaycan Milli Tarix muzeyinin Numizmatika fondunda Naxçıvan Muxtar Respublikasına məxsus qədim sikkə nümunələri qorunub saxlanılır. Eləcə də, Naxçıvan Dövlət Muzeyinin kataloqunda yer alan 5000-dən çox sikkə nümunələri arasında Naxçıvana məxsus numizmatik materiallar say etibarı ilə daha çoxdur (2.səh 2).

Türkiyənin Mardin muzeyində Səfəvi dövlətinə məxsus sikkə nümunələri saxlanılır. Mardin muzeyində mövcud olan Səfəvi sikkələri haqqındakı məlumatlarda Səfəvi dövləti Azərbaycana aid edilmir, kəsilən pul nominallarının İran şahının əmri ilə zərb edildiyi qeyd edilir. Mardin muzeyindəki səfəvi pullarını tədqiqat edənlər qeyd edirlər ki: "Ən böyük müsəlman sülalərindən biri olan Səfəvi, İran və ətrafını idarə edirdi. Səfəvi sülaləsinin doqquzuncu hökmdarı Hüseyn Mirzənin hakimiyyəti dövründə dövlət süquta doğru gedir. Beləliklə İran Səfəvilər dağılmış olur". Mardin muzeyində mühafizə edilən sikkələr, forması, istifadə edilən yazı tərzi və müxtəlifliyi baxımından ən maraqlı sikkə nümunələridir. Sikkələrin ön hissəsində şiə əqidəsinə uyğun olaraq dini ifadələr, arxa tərəfində isə hökmdarın adı qeyd edilmişdir. Sikələrdə istifadə olunan dil, digər islam sikkələrindən fərqli olaraq ərəb dilində deyil, fars dilindədir. Sikkələrdə iki fərqli yazı sülus və talik yazıları mövcuddur. Xəlifələrin adı sikkələrin ön tərəfində olsa da, şiə əqidəsinə uyğun olaraq "Əli Allahın canişinidir" ifadələri arxa tərəfdə həkk edilmişdir. Sikkələrin demək olar ki, hamısında sultan "Şah" başlığından istifadə edilmişdir. Sikkənin zərb ili rəqəmlərlə üzərinə qeyd edilmişdir. Sikkəni ətrafinda həkk edilən nəstəliq xətti, sikkəyə füsünkar estetik görünüş bəxş etmişdir. Sikkənin konturlarında həndəsi formalardan başqa vegetativ sərhədlər də yer almaqdadır. Mardin muzeyində Azərbaycana məxsus sikkə nümunələrinin arasında ən nadir Səfəvi sikkələrindən ikisi daha çox diqqəti çəkir. Kataloq 196-da yerləşən sikkə nümunəsinin invertar nömrəsi 471-ci qrup, çəkisi 5.4 qram, həcmi isə 2.4 sm, tərkibi gümüş, dövrü Səfəvi (H.1132-M.1719/1720) yazı tipi sülüs-talikdir. Sikkənin üz hissəsində dört tip yazı mövcuddur. Sikkənin yazı növü talikdir və yazı aralıqlarında konturlar əks edilmişdir. Yazıda hərflərin quyruqları uzadılaraq, sətirləri biri-birindən ayırılmışdır. Yazılar və sətirlər səliqəli bir formada sikkəyə həkk edilmişdir. Bu yazılar düz, tək sıra, tam dairə ilə bir konturun içinə alınmışdır. Bu konturun

ətrafına ard-arda sıralanmış, kiçik dairələr mirvari kimi düzülmüşdür. Mirvari formasında kiçik dairələrin haşiyəyə aldığı tam çevrə tək xətt kontur ilə kompozisiyanı tamamlamışdır (4.səh 50). Sikkənin arxa tərəfində üç sıra ilə yazı əks olunmuşdur. Sikkənin arxa tərəfində üst tərəfindəki kimi yazı aralıqlarında konturlar izlənilmir. Hərflərin quyruqları uzadılaraq kontur görüntüsü verir. Yazılar düz, tək sıra, tam dairə ilə bir konturun içinə yerləşdirimiş, ətrafına mirvari kimi kiçik dairələr həkk edilmiş, bütün bu ahəng xüsusi kompozisiya əks etdirmişdir. Sikkənin vəziyyəti normaldır, sadəcə sikkənin ətraf konturlarında kiçik hissələrin silindiyi müşahidə olunur. Sikkə Səfəvi şahı Hüseyn tərəfindən hicri era ilə 1130-cu, miladi təqvim ilə 1717-18-ci ilərdə zərb edilmişdir. Sikkənin üst tərəfində "La İlahə İllallah Məhəmmədin Rəsullallah Əliyyən Vəliyullah" ifadəsi mövcuddur. Bu ifadənin mənası belədir: "Allahdan başqa ilah yoxdur və Hz Məhəmməd (s.ə.s) onun elçisidir, Əli onun canişinidir." Sikkənin arxa tərəfində isə "Şah vilayəti Təbriz Duribə 1130" yazısı qeyd edilmişdir. Yazının mənası bu cür verilir: "Hüseyn şahın şəhəri Təbrizdə, 1130-cu ildə zərb edilmişdir". Kataloq 198-də yerləşən sikkə nümunəsinin invertar nömrəsi 471-ci qrup, çəkisi 5.3 qram, həcmi isə 2.3 sm ,tərkibi gümüş, dövrü (h.1132-m.1719/1720) yazı tipi sülüs-talikdir. Sikkənin üz tərəfində üç sıra ilə Kəlimə-i Tövhid yazısı həkk edilmişdir. Bu yazılar talik tipindədir və yazı aralıqlarında hər hansı bir kontur verilməmişdir. Kontursuz yazılarda bəzi hərflərin quyruqları uzadılaraq sətirlər bir-birindən ayrılmışdır. Bu yazılar düz, bütöv bir dairə ilə konturun içinə yerləşdirilmişdir. Yazı ətraflarında düz, cüt sıra ilə, bütöv çevrə bir kontur mövcuddur. Sikkənin arxa üzündə də üç sıra yazı həkk edilmişdir. Bu yazılarda üz tərəfdə olduğu kimi hər hansı bir kontur yoxdur. Lakin, hərflərin quyruqları uzadılaraq kontur görünüşü verilmişdir. Yazılar arasında istifadə olunan nöqtələr gül formasındadır. Bu yazılar düz, bütöv bir dairə ilə bir konturda verilmişdir. Kontur ətrafına qıvrım budaqlarla hörülmüş sərhəd çəkilmişdir. Qıvrım hörülmüş budaqların boşluqlarına kiçik, bütöv dairələr həkk edilmişdir. Vəziyyəti çox yaxşı olan sikkənin yazı və konturları çox aydın formada oxuna bilir. Bəhs olunan bu Səfəvi sikkəsi ən yaxşı qorunan və bitki bəzəklərinin müşahidə olunduğu nadir nümunələrdəndir. Sikkə Səfəvi şahı Hüseyn tərəfindən hicri era ilə 1132-ci il, milad təqvimi ilə 1719-1720-ci illərdə Təbrizdə zərb edilmişdir. Sikkənin üz tərəfində "La İlahə İllallah Məhəmmədin Rəsulullah Əliyyən Vəliyullah" sözləri qeyd edilmişdir. Bu sözlərin mənası belədir "Allahdan başqa ilah yoxdur və Hz Məhəmməd onun elçisidir. Əli Allahın canişinidir". Sikkənin arxa tərəfində isə "Şah vilayətin birində Hüseyn zərbi Xoy 1132" yazılmışdır. Bu ifadənin mənası "Hüseyn şahın şəhəri Xoyda 1132-ci ildə zərb edilmişdir ( 5, səh 37). Kataloq 202-də yerləşən sikkə nümunəsinin invertar nömrəsi 128-ci qrup, çəkisi 5.4 qram, həcmi isə 2.8 sm, tərkibi gümüş, dövrü Səfəvi (h.1145-

m.1732/1733) yazı tipi sülüs-talikdir. Sikkənin üst hissəsində üç sətir yazı mövcuddur. Xüsusi zərb işləri aparılan bu sikkə üzərində kiçik yuvarlaq fiqurlar hək edilmişdir. Zərb edən xəttatlar islam ənənələrinə sadiq olaraq hərflərin quyruqları uzadılaraq bir-birindən ayrılmışdır. Bütün bu yazılar, kiçik mirvari sırasıyla düzülən dairələrlə konturlanmışdır. Sikkənin ətrafı isə saç hörüyü formasında sıralanan dairələrlə konturlanmışdır. Sikkənin arxa üzündə isə dört bənd yazı verilmişdir. Yazılar arasında arakəsmələr qoyulsa da, yazının üç sətrində "sim" və "mim" hərfinin qolu uzadılaraq yazılar stilizə olunmuş, bir-birindən ayrılmışdır. Yazıların ətrafında verilən üç xal formasında nöqtələr yazıya canlılıq vermişdir. Yazılar ətrafında hər hansı bir kontur izlənmir. Sikkənin vəziyyəti normal görünsə də, yaxından baxdıqda sikkənin kənarına yaxın yazılar və konturlar tamamilə silinmişdir. Sikkə hicri era ilə 1145, miladi təqvim ilə 1732-33-cü illərdə Səfəvi şahı III Şah Abbas tərəfindən İsfahanda zərb edilmişdir. Sikkənin üz tərəfində "La ilahə İllallah Məhəmmədin Rəsululah Əliyyən Vəliyullah", ətrafında isə "Məhəmmədin Əlliyun Xan Hüseyn Əli Məhəmməd Hüsrəv Musa Əlliyun Məhəmmədin Əlliyun Hüseyin" sözləri yazılmışdır. Bu sözlər "Allahdan başqa ilah yoxdur və Hz Məhəmməd (s.ə.s) onun elçisidir, Əli Allahın canişinidir, Məhəmməd oğlu Hüseyn Əli Məhəmməd Hüsrəv Musa Əliyyun Məhəmmədin Əliyyun Hüseyn" anlamına gəlir. Sikkənin arxa tərəfində isə " Sikkə ber zer be zd be tevfik-i ilahi der-cihan zıl-ı haq Abbasi salis sani-i sahib Kiran zərbi İsfahan" ifadəsi yazılmışdır. Sözlər bu formada tərcümə olunur "Sahib Kiran ikinci Abbasın kölgəsində dünyada Allahın köməkliyi ilə qızıl sikkə İsfahanda zərb edildi" (5. Səh 27). İranın Bastan Muzeyində Səfəvilərə məxsus sikkə nümunələri qorunub saxlanılmaqdadır. Adı gedən sikkələr Şah İsmayılın dövründə zərb edilmişdir. Əfsuslar olsun ki, bu sikkə nümunələri İran şahının adı ilə təqdim olunur, bir sözlə həm Şah İsmayıl İran şahı kimi təqdim olunur, həm də zərb edilən sikkələr farslaşdırılmış isimlə nümayiş olunur. Tədqiqat zamanı aşkarlanan üç sikkə nümunəsi haqqında İran mənbələrində bu formada yazılır: " Şah İsmayıl Təbrizə gəldikdən sonra İran şahı kimi tac qoyub, Əbu-İ Müzəffər Şah İsmayıl əl-Hadi Əl -Vadi ləqəbini götürdü. O, tac geyindikdən sonra ilk cümə günü 12 şiə İmama xütbə oxutdu və özünün şərəfinə sikkə zərb etdirdi. Sikkənin bir üzündə "Əli-Həsən, Hüseyn-Əli, Məhəmməd-Cəfər, Musa-Əli, Məhəmməd-Əli, Həsən-Məhəmməd yazıları həkk edilmişdir". Ehtimal olunur ki, hər üç sikkə nümunəsi Heratda zərb edilmişdir. Üçüncü sikkə nümunəsində şiə etiqadına uyğun olaraq 12 imamın adları qeyd edilmişdir. Həmçinin sikkələrin köməkliyi ilə Şah İsmayılın ləqəblərini və uğurlu qələbələrini müəyyən etmək olur. İran Bastan Muzeyində saxlanılan bu üç sikkə nümunəsi Azərbaycan Səfəvi dövlətinə məxsusdur. Eyni formalı sikkə Milli Azərbaycan Tarix

Muzeyində də qorunub saxlanılmaqda, həmçinin nümayiş olunan eksponatların sırasında yer almaqdadır.

## Ədəbiyyat:

1. Əliyev M. Səfəvilərin hakimiyyəti dövründə Naxçıvanda zərbxana və pul vahidi sistemi // Elmi əsərlər. Azərbaycan Respublikası Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti. Tarix və ictimai elmlər seriyası, 2008, №5 (25), s. 51-55
2. İlyasoğlu R., Rəcəbli Ə.M. Qədim pullar silinməz tarixdir: Tariximiz sikkələr güzgüsündə // Kredo, 2010, 13 noyabr.
3. Vəliyeva M.İ. S.C.Təbatəbainin əsərlərində Azərbaycan numizmatikasının bəzi problemləri // AMEA-nın Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2010, №1, s. 156-161
4. Abdüsselam Uluçam Mardin Müzesində İslami Dönem Sikkelerinden örnekler Konya 2011

## Фальсификация азербайджанских нумизматических экспонатов в музеях мира

## Резюме

В статье повествуется об образцах материальной культуры Азербайджана, которые были похищены и вывезены с территории страны во время различных оккупаций и о горьких последствиях их фальсифицированной пропаганды под именем других стран.

**Ключевые слова:** Нумизматика, монеты, экспонаты, фальсификация, музей.

## Falsification of Azerbaijani numismatic exhibits in world museums

## Summary

The article deals with the abduction of Azerbaijani cultural artifacts during various occupations, their falsification and propaganda in the name of other countries, and the bitter consequences.

**Key words:** Numismatics, coin, exhibit, counterfeiting, falsification, museum.